# Paris-2024 Olimpiya Oyunları

## Hidayət Heydərov ilk qızıl medalımızı qazandı



**Azərbaycan Olimpiya Komandası Paris-2024 Yay Olimpiya Oyunlarında ilk qızıl medalını qazanıb. Bu uğura cüdo yarışlarının üçüncü günündə tatami üzərinə çıxan dünya və dördqat Avropa çempionumuz Hidayət Heydərov (-73 kq) nail olub. Mübarizəyə 1/8 final mərhələsindən başlayan cüdoçumuzun ilk rəqibi Tokio-2020 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı israilli Tohar Bitbula qalib gələn təmsilçimiz 1/4 finala vəsiqə qazanıb. Cüdo yığmamızın lideri növbəti mərhələlərdə kanadalı Artur Margelidon və kosovalı Akil Qyakova qalib gələrək finala vəsiqə əldə edib.**

Həlledici mərhələdə cüdoçumuzun rəqibi fransalı Con Benjamin Qaba olub. Gərgin mübarizə şəraitində keçən qarşılaşmada qalib gələn Hidayət Heydərov Paris-2024 Yay Olimpiya Oyunlarında komandamıza ilk qızıl medalı qazandırıb. Beləliklə, Hidayət Heydərov bu il Avropa və dünya çempionluqlarının ardından Olimpiya medalını da qazanaraq Fransada Azərbaycan bayrağını yüksəklərə qaldırmaqla himnimizi səsləndirib.

Qeyd edək ki, bu, müstəqil respublikamızın tarixində Olimpiya Oyunlarında əldə etdiyi 50-ci medalı olub. Azərbaycan komandası bu Oyunlarda ümumilikdə müxtəlif idman növləri üzrə 49 (7 qızıl, 14 gümüş, 28 bürünc) medal qazanıb.

Cüdo yarışlarını Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Gənclər və İdman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva və MOK-un baş katibi Azər Əliyev də izləyib.

## *Həlledici mərhələdə Fransa idmançısına qalib gəldi*

Xatırladaq ki, avqustun 2-dək davam edəcək Paris-2024-ün cüdo yarışlarında Azərbaycan komandasının daha dörd idmançısı tatami üzərinə çıxacaq.